

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 213 (21.114)

7 noyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beynəlxalq miqrasiya hüququ üzrə təlim kurslarına start verilib



***Noyabrın 6-da Naxçıvan şəhərindəki "Təbriz" otelində Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin birgə təşkilatçılığı ilə beynəlxalq miqrasiya hüququ üzrə təlim kurslarına start verilib.***

Təlim kurslarında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Daxili İşlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, "Naxçıvan" Sərhəd Diviziyasının, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən BMqT-nin Azərbaycan Nümayəndəliyinin proqram koordinatoru Səltənət Məmmədova bildirib ki, beynəlxalq miqrasiya hüququ üzrə təlim kursları miqrasiya sahəsinə cəlb olunmuş müvafiq dövlət qurumları nümayəndələrinin beynəlxalq miqrasiya qanunvericiliyi, miqrasiya hüququ, miqrantların qayıdışı və bu kimi digər məsələlərdə biliklərinin artırılması və fəaliyyətlərinin gücləndirilməsi məqsədi daşıyır. Bundan əvvəl təlimlər Bakıda, Yevlaxda, Lənkəran və Xaçmazda da keçirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini, kiçik miqrasiya xidməti müşaviri Elnur Məmmədov çıxış edərək deyib ki, iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində muxtar respublikada miqrasiya proseslərinin daha səmərəli üsul və vasitələrlə vahid dövlət orqanı tərəfindən tənzimlənməsi, onların uçotunun aparılması, miqrasiya siyasətinin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 may 2010-cu il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılıb.

Qeyd olunub ki, Dövlət Miqrasiya Xidməti fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq və yüksək humanizm prinsipləri əsasında quraraq aidiyyəti qurumlarla birlikdə fəaliyyət göstərir, miqrasiya sahəsində aidiyyəti orqanların fəaliyyətini əlaqələndirir. Qurum əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqətiolma müddətinin uzadılması, ölkə ərazisində müvəqqəti və daimi yaşamaq istəyən əcnəbilərə icazənin, sığınacaq axtaran əcnəbilərə qaçqın statusunun, habelə muxtar respublika ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi məsələləri ilə məşğul olur, vətəndaşlıq məsələlərinin həllində iştirak edir. Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanı sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələrinin və miqrasiya köşklərinin yaradılması ilə əcnəbilərin təlimatlandırılması prosesində böyük irəliləyişlər əldə edilib, qanunsuz miqrasiyanın qarşısının alınmasına nəzarətin daha effektiv şəkildə həyata keçirilməsinə başlanılıb.

Müasir dövrdə təcrübə mübadiləsinin əhəmiyyətindən də danışan Elnur Məmmədov bu mənada beynəlxalq miqrasiya hüququ üzrə keçilən təlim kurslarının əhəmiyyətini qeyd edib.

BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri əvəzi Sərhan Aktoprak çıxışında Azərbaycanın çox böyük inkişaf yolu keçdiyini qeyd edib. Bildirib ki, ölkədə bütün sahələr üzrə əsaslı nailiyyətlər qazanılır, onun Naxçıvan Muxtar Respublikası uğurla inkişaf edir.

BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri əvəzi vurğulayıb ki, regional inkişafın aparıcı dövləti olan Azərbaycan Respublikası hazırda miqrantların mənşə ölkəsinə təyinat ölkəsinə çevrilib. Buna görə də BMqT ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşməsi müasir dövrün tələbidir.

Bildirilib ki, BMqT ona üzv ölkələrdə beynəlxalq miqrasiya hüququnun öyrənilməsi, əmək miqrasiyasının idarə olunması, qanunsuz miqrasiyanın qarşısının alınması kimi mövzular üzrə təlim kursları təşkil edir, ölkələrin miqrasiya ilə bağlı qurumlarının əməkdaşları üçün miqrasiyanın idarə edilməsi və tənzimlənməsi sahəsində treninqlər keçirir. Naxçıvan Muxtar Respublikasında keçilən beynəlxalq miqrasiya hüququ üzrə təlim kursları da müəyyənləşdirilmiş qrafikə uyğun olaraq reallaşdırılır.

Daha sonra təlim kurslarına start verilib.

Əvvəlcə mövzu ilə bağlı iştirakçıların bilik səviyyəsinin yoxlanılması üçün onlara test vərəqələri paylanılıb.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Namiq Cəfərov və Sədi Bayramov beynəlxalq miqrasiya hüququ, dövlətlərin səlahiyyət və öhdəlikləri, miqrantların hüquq və vəzifələri, insan hüquqları, miqrantların xüsusi kateqoriyaları ilə bağlı iştirakçılara ətraflı məlumatlar veriblər.

**Rauf ƏLİYEV**

*Meliorasiya və su təsərrüfatı iqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri diqqət mərkəzində saxlanılır.*

## Meliorasiya və su təsərrüfatı sistemində müasir infrastruktur yaradılmışdır

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi və onun yerlərdə fəaliyyət göstərən strukturları tərəfindən 2014-cü ilin oktyabr ayında da müvafiq tədbirlər görülmüşdür. Belə ki, muxtar respublikanın müxtəlif ərazilərini əhatə etməklə, 2,8 kilometr kanal, 6,18 kilometr kollektor, 55,4 kilometr ara arxları lildən təmizlənmiş, 518 metr kanala beton döşənmiş, 2,74 kilometr içməli su xətti təmir olunmuş, 3,48 kilometr yeni içməli su xətti və 4,92 kilometr müxtəlif diametrli borularla suvarma xətti çəkilmişdir. Babək rayonunda "Qaraçuq-1" nasos stansiyasında lildən təmizlənmə işləri aparılmış, Naxçıvan çirkab sutəmizləyici qurğusunun havalandırma hovuzunda dəmir-beton işləri görülmüş, inzibati binada tikinti işləri başa çatdırılmışdır.

Əkinəyararlı torpaqların suvarma suyuna olan ehtiyacının ödənilməsi bol məhsul istehsalında ən vacib amillərdəndir. Bu istiqamətdə işlər oktyabr ayı ərzində də davam etdirilmişdir. Şahbuz rayonunda 50 metr kaptaj tikilmiş, torpaqların sel sularından qorunması və suvarmanı yaxşılaşdırmaq məqsədilə Araz çayında 1 kilometr sahilbərkitmə işi aparılmışdır. Kəngərli rayonunda yeni tikilən nasos stansiyasından 1 kilometr uzunluğunda suvarma xətti, Vayxır sol sahil kanalının ətrafındakı torpaq sahələrində 17,6 kilometr məsafədə suvarma şəbəkəsi və 3,8 kilometr drenaj xətti çəkilmişdir.

Muxtar respublikada içməli və suvarma suyuna olan tələbatın ödənilməsində subartezian quyularının gücündən də geniş istifadə olunur. Bu amil nəzərə alınaraq istismarda olan subartezian quyularının təmir-bərpası da diqqət mərkəzində saxlanılır. Belə ki, oktyabr ayı ərzində 47 subartezian quyusunda təmir işləri aparılmış, 1-i isə bərpa olunmuş, 8 subartezian quyusuna yeni nasos qoyulmuşdur. Bundan başqa, Soyuq bölgəsində yerləşən hərbi hissədə 3 subartezian nasosu quraşdırılmış, şəxsi heyətin dağ şəraitində üzləşdiyi içməli su problemi tamamilə həll edilmişdir.

İçməli və suvarma suyuna olan tələbatın ödənilməsində əsas hidrotexniki qurğu olan kəhrizlərdən bu gün də geniş istifadə olunur. Kəhrizlərin bərpa edilməsi su təchizatının yaxşılaşdırılması ilə yanaşı, həm də tariximizin və mədəni irsimizin qorunub saxlanılması, öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Ötən ay ərzində Kəhrizlər İdarəsi tərəfindən muxtar respublika ərazisindəki 6 kəhrizdə təmir-bərpa işləri davam etdirilmişdir.

İrriqasiya işlərinin aparılmasında texnikanın gücündən istifadə vacib şərtdir. Buna görə də komitənin bazasındakı maşın-mexanizmlərin sazlığı daim nəzarətdə saxlanılır. Ötən ay ərzində texnikalar texniki baxışdan keçirilmiş, istismarda olan avtomaşınlar, 4 müxtəlif kilovatlıq elektrik mühərriki və 8 subartezian nasosunun rotoru təmir olunmuşdur.

Komitə tərəfindən həyata keçirilən tədbirlər içərisində içməli su təminatının yaxşılaşdırılması prioritet istiqamət təşkil edir. Bu gün Naxçıvan şəhərində və rayon mərkəzlərində əhalinin keyfiyyətli və dayanıqlı içməli su təminatı sahəsində ardıcıl tədbirlər görülür. Həyata keçirilən layihələrin nəticəsidir ki, artıq muxtar respublikada müasir içməli su şəbəkəsi qurulmuşdur. Ötən ay ərzində də əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə görülən işlər davam etdirilmiş, Naxçıvan şəhərində 29 evə kanalizasiya və içməli su xətti çəkilmişdir. Babək rayonunda 1,6 kilometr kanalizasiya, 3 kilometr içməli su xətti çəkilərək 220 evə birləşdirilmiş, Şahbuz rayonunda içməli su anbarı izolyasiya olunmuşdur. Sədərək rayonunda da bu istiqamətdə işlər davam etdirilmiş, 1 kilometr kanalizasiya, 0,8 kilometr içməli su xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi bundan sonra da meliorasiya və irriqasiya sahəsində qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcək, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada etibarlı nəqliyyat şəbəkəsi qurulmuşdur

***Muxtar respublikada yol-nəqliyyat infrastrukturunun müasir standartlara uyğun qurulması, aid qurumların fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili və səmərəliliyin artırılması diqqət mərkəzində saxlanılır. 2014-cü ilin oktyabr ayı ərzində əhaliyə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, şəhərdaxili nəqliyyatda işləyən avtobusların beynəlxalq standartlara cavab verən müasir avtobuslarla əvəz olunması, Naxçıvan şəhərində nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması və ictimai nəqliyyat vasitələri üçün yeni dayanacaqların quraşdırılması işləri davam etdirilməkdədir.***

Hesabat dövründə təhlükəsiz və rahat idarəetmənin təşkili məqsədilə avtobuslara gündəlik texniki baxış keçirilmiş, nasaz hissələri təmir olunmuşdur. Nəticədə, muxtar respublikada sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, fəaliyyətdə olan 123 marşrut xəttində 296 avtobusla rayon mərkəzləri və kəndlərin hər biri marşrutla təmin edilmiş, 482 taksi vasitəsilə əhalinin bu nəqliyyat növünə olan tələbatı tamamilə ödənilmişdir.

İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı və Bakı-Naxçıvan istiqamətləri üzrə hərəkət edən marşrut Naxçıvan əhalisi üçün xüsusi əhəmiyyət kəsb edir. Buna görə də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə məxsus 2 ədəd "Mercedes Benz-Travego" markalı avtobus bu marşruta cəlb olunmuş, avtobusların təhlükəsiz hərəkəti və texniki sazlığı, eləcə də sərnişinlərə nümunəvi xidmətin təşkili təmin olunmuşdur. Bu dövr ərzində Naxçıvan-Bakı istiqamətində 129 reys həyata keçirilmiş, hər iki istiqamətdə 9 min 822 sərnişin daşınmışdır.

Ötən ay ərzində nazirlik tərəfindən mütəmadi olaraq sərnişindaşıma ilə məşğul olan avtobusların təmizliyinə, sürücülərin geyim formasına və hərəkət qrafikinə nəzarət edilmiş, axşam saatlarında şəhərdaxili marşrutların işinin daha səmərəli qurulması, avtobusların marşrut qrafikinə uyğun hərəkəti diqqət mərkəzində saxlanılmışdır. Nəqliyyat vasitələrinin, eləcə də avtovağzal binalarının istilik sistemləri yoxlamadan keçirilmiş, qış mövsümündə sərnişinlərə keyfiyyətli nəqliyyat xidmətinin göstərilməsi üçün bütün lazımi tədbirlər görülmüşdür.

Sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrinin nəzarətdə saxlanması xidmətin keyfiyyətinin yüksəldilməsini şərtləndirən mühüm amillərdəndir. 2014-cü ilin oktyabr ayı ərzində 19 fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 27 avtonəqliyyat vasitəsinə lisenziya kartları verilmişdir. Lisenziya almış avtomobillərin texniki müayinədən keçirilməsindən əldə olunmuş 5 min 145 manat vəsait nazirliyin xüsusi hesabına, lisenziya rüsumu olaraq toplanmış 2 min 850 manat vəsait isə büdcəyə köçürülmüşdür.

Oktyabr ayı ərzində nazirliyin "Reyd komissiyası" Nəqliyyatda müfəttişlik və təhlükəsizlik şöbəsi ilə birlikdə müxtəlif günlərdə 11 dəfə reyd keçirmiş, qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələri aşkarlanaraq aid təşkilatlarla birlikdə onların sürücüləri barədə müvafiq tədbirlər görülmüşdür. Həmçinin "Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə ağırçəkili və iriqabaritli nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın icrası istiqamətində tədbirlər də müvafiq dövr ərzində davam etdirilmişdir. Yükdaşımalarda təhlükəsizlik tədbirləri ilə bağlı olaraq profilaktik tədbirlər aparılmış, yükdaşıma fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilmişdir.

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanunu-nun, habelə nəqliyyata aid digər qanunvericilik aktlarının təbliği məqsədilə daşımalarla məşğul olan hüquqi və fiziki şəxslər arasında maarifləndirmə işi genişləndirilmiş, Naxçıvan Avtobus Parkında muxtar respublikada sərnişin daşımalarını yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmişdir. İkigünlük seminar-müşavirədə "Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını yerinə yetirən sürücülərin intizam qaydaları" mövzusunda müzakirələr aparılmış, payız-qış mövsümünə hazırlığın vəziyyəti təhlil olunmuşdur.

***Payız-qış mövsümünə tam hazır vəziyyətə gətirilən avtonəqliyyat vasitələrində, eləcə də avtovağzal və dayanacaqlarda əhalinin rahatlığının təmin olunması məqsədilə görülən işlər bundan sonra da davam etdiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

# Əlahiddə Ümumqoşun Ordusu Naxçıvanın intibahının qarantı



***Qədim Azərbaycan yurdu Naxçıvan... Kimisi buranı Şərqə açılan qapı, kimisi böyük Türk dünyasını birləşdirən körpü, kimisi də Asiyanı Avropaya bağlayan mühüm tranzit yol kimi dəyərləndirir. İstənilən strateji yanaşmadan əvvəl bu diyar öz qədimliyi ilə və bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin vətəni kimi tanınır. Ümumiyyətlə isə Naxçıvan tarix boyu müxtəlif xarici maraqların toqquşduğu bir regiondur. Bəlkə də, buna görədir ki, son yüz ildə bu qədim diyarın təhlükəsizliyinin təmin edilməsi daha çox diqqət mərkəzində olub.***

90 il bundan əvvəl Naxçıvanın muxtariyyət statusu alması onu xarici təhlükələrdən qoruyub, lakin ona qarşı yürüdülən əsassız iddialar heç vaxt səngiməyib. Hətta ən yeni tarixdə – ötən əsrin sonlarına doğru bu diyara edilən iddialar daha kəskin xarakter alıb, Azərbaycanın digər bölgələri kimi, Naxçıvan da mənfur ermənilərin aramsız hücumlarına məruz qalıb. Sədərək rayonunda, Şərur rayonunun Havuş, Şahbulaq, Yuxarı Yaycı, Şahbuz rayonunun Şada, Babək rayonunun Gərməçataq, Yuxarı Buzqov və adını sadalamadığımız digər sərhəd məntəqələrində gedən ağır döyüşlər yaddaşlardan heç vaxt silinməyəcək. Onu da nəzərə alaq ki, muxtar respublikada döyüşlər Azərbaycanın digər bölgələrindən fərqli olaraq blokada şəraitində aparılırdı. Blokada şəraitində müharibə aparmağın necə çətin olduğunu isə kiməsə sübut etməyə ehtiyac yoxdur. Azərbaycanın əsas hissəsi ilə quru yolla əlaqənin kəsildiyi, elektrik enerjisinin fasilələrlə verildiyi, təbii qazdan isə əsər-əlamətin olmadığı, bununla bərabər, ərzaq ehtiyatının getdikcə tükəndiyi bir vaxtda Naxçıvanın inamla mübarizə aparması, sözün həqiqi mənasında, bu diyarın qəhrəmanlıq səhifələrinə yazılmış cümlələrdən, sadəcə, bir neçəsidir. Nəzərə alaq ki, həmin dövrdə düşmənlə müqayisədə çox cüzi texniki imkanlara malik Naxçıvanı düşmənə təslim etməmək üçün əsl ölüm-dirim mübarizəsi gedirdi. Muxtar respublikanın digər sərhəd bölgələri ilə müqayisədə piyada və döyüş maşınlarının döyüş zamanı rahat hərəkət edəcəyi ən uyğun strateji bölgələrdən olan Sədərək ərazisinin mütəmadi olaraq hücumlara məruz qalması da bu səbəbdən idi. Ancaq düşmən üçün yarılması asan düşünülən bu cəbhəni keçmək heç zaman mümkün olmayacaqdı. Çünki artıq Naxçıvana və muxtar respublikada ordu quruculuğuna Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyev rəhbərlik edirdi.

Hamımıza məlumdur ki, ulu öndər Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdıqdan sonra burada xalq tərəfindən böyük sevgi ilə qarşılanmış, qısa müddətdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir. Muxtar respublikanın rəhbəri seçilən böyük öndər cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən müvafiq dövlət qurumu yaratmışdır. 1992-ci il sentyabrın 15-də isə Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş, bununla da, Azərbaycanda milli nizami ordunun yaradılmasına başlanmışdır. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvanda, ümumilikdə isə Azərbaycanda milli ordu quruculuğu istiqamətində mühüm addımlar atılmış, bu prosesi həyata keçirmək üçün cəbhədə atəşkəs haqqında saziş imzalanmışdır. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyinin ikinci dövründə Silahlı Qüvvələrimizin inkişafı daim diqqət mərkəzində olmuş, həm hərbi təhsilli kadrların hazırlanmasında, həm də orduda digər islahatların aparılmasında mühüm dönüş yaranmışdır. Bunun nəticəsidir ki, ümummilli liderimizin qayğısı ilə 1995-ci ildə muxtar respublikada yerləşən 705 saylı motoatıcı briqada motoatıcı diviziyaya çevrilmişdir. Naxçıvanın intibah tarixinin yazılmağa başladığı həmin ildən başlayaraq buradakı ordu hissələrinin təminatı yaxşılaşdırılmış, orduda xidmətə başlayan hərbi təhsilli kadrların sayı getdikcə artmağa başlamışdır. Xüsusilə, mülki ali təhsilli hərbçi zabitlərlə müqayisədə ali hərbi təhsilli zabitlərin ordu birləşmələrində sayının ildən-ilə artması, eyni zamanda buradakı hərbi hissələrin maddi-texniki bazasının getdikcə daha da yaxşılaşdırılması yeni ordu birləşməsinin yaradılmasını zəruri edirdi. Məhz 1998-ci ildə muxtar respublikamızın müdafiəsinin təşkilində mühüm rol oynayan 705 saylı diviziyanın bazasında ordu korpusu yaradıldı. Ötən dövr ərzində motoatıcı briqadadan ordu korpusuna qədər yüksələn 705 saylı hərbi hissə islahatların nə qədər düzgün və zamanında həyata keçirildiyinin bariz nümunəsinə çevrildi. Burada Azərbaycan Ordusunun yaradıcısı, böyük dövlət xadimi Heydər Əliyevin ordu quruculuğu ilə bağlı dediyi fikirləri xatırlamadan keçmək olmur: ***“Ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu, bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz Silahlı Qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq”.***

Bəli, 1998-ci ildən başlayaraq ordu korpusu kimi fəaliyyət göstərən 705 saylı hərbi hissə ötən 16 il ərzində daim ölkə başçısının, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində mühüm bir inkişaf yolu keçib. Bu dövr ərzində yüzlərlə hərbi təyinatlı obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, şəxsi heyət üçün hərtərəfli şəraitə malik məişət-yaşayış kompleksləri yaradılıb, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Eyni zamanda ordunun döyüş qabiliyyəti artırılıb, hərbi hissələrin silah-sursatla təminatı ən yüksək səviyyədə aparılıb. Ən əsası isə orduda vətənpərvərlik tərbiyəsinin düzgün istiqamətdə həyata keçirilməsi hərbi qulluqçular arasında xidmətin yüksək səviyyədə aparılmasını təmin edib. Vurğulamaq lazımdır ki, ordumuzun hərtərəfli inkişafında xalq-ordu birliyinin vəhdəti də çox mühüm amil olub. Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrə ictimaiyyət nümayəndələrinin mütəmadi səfərləri, müvafiq dövlət qurumları ilə əlaqələr, habelə əlamətdar günlərdə əsgərlərlə birgə təşkil olunan görüşlər bu birliyi daha da sarsılmaz edib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin davamlı olaraq hərbi hissələrdə olması, zabit və əsgərlərin qayğıları ilə yaxından maraqlanması şəxsi heyətin vətənpərvərlik hissinin yüksəldilməsinə, Vətəni qorumağın ən şərəfli iş olduğuna inamının əsl psixoloji stimuluna çevrilib.

Təbii ki, muxtar respublikamız inkişaf etdikcə, onun ordusu da inkişaf edib, özünün intibah səviyyəsinə çatıb. Doğrudur, “blokada” və “intibah” ifadələri bir-birinə nə qədər zidd olsa da, fakt və reallıq bu diyarda hər iki kəlmənin birgə işlənilməsinə “icazə verir”. Hərtərəfli inkişaf baxımından Azərbaycanın lider regionuna çevrilən bu qədim diyarda sürətli inkişafın qarantı isə bir il bundan əvvəl Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ən yüksək səviyyədə təmin edildi. “Muxtariyyət ili”nin başlanmasına sayılı günlər qalmış Ali Baş Komandan Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Fərman imzaladı. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə yuxarıda adıçəkilən Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı. Ötən bir ilə yaxın müddət ərzində Əlahiddə Ümumqoşun Ordusunun döyüş arsenalına ən müasir silahlar daxil edildi, şəxsi heyətin sayı artırıldı, hərbi hissələrdə tikinti-quruculuq tədbirlərinin miqyası genişləndirilərək yeni infrastruktur obyektləri istifadəyə verildi. Həyata keçirilən tədbirlər ona gətirib çıxardı ki, indi bu ordunun əsgərləri muxtar respublikanın düşmənlə təmas sərhədlərində dəniz səviyyəsindən kilometrlərlə yüksəklikdə hava şəraitindən asılı olmayaraq, ən müasir şəraitdə yüksəksəviyyəli xidmət aparır, düşmənin hər addımını belə, nəzarətdə saxlaya bilir.

*Bəli, bu gün Əlahiddə Ümumqoşun Ordusu istər sülh, istərsə də müharibə vəziyyətində istənilən xarici hərbi müdaxilələrin qarşısının alınmasında buradakı qüvvələrin koordinasiyasının həyata keçirilməsi, regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə müharibə apara bilən hərbi birləşmə olmaqla regionun təhlükəsizliyində mühüm rol oynayır. Artıq bu ordu Naxçıvanın intibahının qarantına çevrilməklə yanaşı, həm də təhlükəsiz gələcəyimizi sığortalayan and yerimiz, qürur mənbəyimizdir!*

***Məqalə “Muxtariyyətin intibahı: 1995-2014” müsabiqəsinə təqdim olunmaq üçündür***

***İstənilən regionun tərəqqisi həmin regionda sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Buna görə də sahibkarlıq subyektlərinin yaradılması inkişaf edən hər bir dövlət üçün prioritet məsələlərdən biridir. Bazar iqtisadiyyatına keçidin uğurla başa çatdırılması ölkəmizdə bu subyektlərin sayının daha da artmasına gətirib çıxarıb, nəticədə, milli iqtisadiyyatda özəl sektorun payı xeyli yüksəlib. Bu yüksəlişi təmin edən əsas meyarlardan biri də dövlətin özəl sektorun inkişaf etdirilməsinə göstərdiyi diqqət və işgüzar mühitin yaradılmasıdır.***

# Sahibkarlığın inkişafı muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin bəhrələridir

## *Ordubadlı sahibkarlar istehsal etdikləri məhsullarla həm də özünəməxsusluğu təbliğ edirlər*

Diqqət etsək, son dövrlərdə bu sahədə xeyli sayda tədbirlərin həyata keçirildiyinin şahidi olarıq. Sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı atılan addımlar Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzində saxlanılıb. Təkcə son 10 ildə Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə artıb. Cari ilin ötən dövrü ərzində isə muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun ümumi həcmi 719 milyon 129 min manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi isə 270 milyon 668 min manat təşkil edib. Qeyd olunan rəqəmlər sahibkarlığın inkişaf etdirilməsinin nəticəsi kimi dəyərləndirilməlidir. Ötən yazılarımızda da bəhs etdiyimiz kimi, muxtar respublikamızda sahibkarlıq subyektlərinin sayı ildən-ilə artır. Təkcə paytaxt Naxçıvan şəhərində deyil, rayonlarımızda da yeni-yeni istehsal müəssisələri yaradılır. Azərbaycanın incisi sayılan Ordubad rayonu da bu sırada istisna deyil.

Ordubad qədim tarixi keçmişi və mədəni zənginliyi ilə bərabər, həm də müasir inkişafı ilə seçilir. Son 19 ildə rayonda digər sahələrlə yanaşı, sahibkarlığın inkişafına da hərtərəfli qayğı göstərilib, onlarla yeni istehsal müəssisələri qurulub, kənd təsərrüfatı məhsullarının istehsalında irəliləyişlərə nail olunub. Muxtar respublikamızın dilbər guşələrindən biri olan Ordubadda müxtəlif sahələr üzrə fəaliyyət göstərən sahibkarlıq subyektləri var. Ancaq bu yazıda biz onlardan ikisi haqqında bəhs edəcəyik. Hansı ki bu sahibkarlar istehsal etdikləri məhsullarla həm də Ordubadın özünəməxsusluğunu təbliğ edirlər.

Ordubadı bağlar diyarı da adlandırırlar. Meyvə bağları istənilən rayonda ola bilər və bu bağlardan da bol meyvə götürmək mümkündür. Ancaq Ordubadın özünəməxsusluğu ondadır ki, bu diyarda yetişən meyvələr dadına görə digərlərindən fərqlənir. Keçmiş zamanlarda bura yolu düşən səyyahlar bu meyvələr haqqında ağızdolusu danışıb, xatirələrini qələmə alıblar. Və yaxud müxtəlif zamanlarda Ordubad meyvələri dünyanın müxtəlif ölkələrində sərgiyə çıxarılıb və qızıl medala layiq görülüb. Elə sahibkar Hüseyn Fərzəliyevin bugünkü sahibkarlıq fəaliyyətində də bu özünəməxsusluq böyük rol oynayıb. O, göstərilən dövlət dəstəyi hesabına istehsal müəssisəsi qurub. Rəhbərlik etdiyi “FH oğulları” Məhdud Məsuliyyətli Cəmiyyətində Ordubad mürəbbələrinin istehsalı ilə məşğuldur. Hüseyn Fərzəliyevlə görüşümüz elə adıçəkilən müəssisədə baş tutur. Müsahibimiz məlumat verir ki, müəssisə 2008-ci ildən fəaliyyət göstərir. Ötən müddət ərzində bir neçə dəfə güzəştli kreditlərdən yararlanaraq istehsal üçün zəruri şəraitin yaradılmasına nail olub. 300 kvadratmetr sahəyə malik müəssisədə hazırda 11 çeşiddə (ərik, tut, badımcan, gilas, qovun, cəviz, gül və sair) mürəbbə istehsal olunur. Mürəbbə bişiriləcək meyvələr əvvəlcə gigiyenik qaydalara uyğun olaraq, burada yuyulur, təmizlənir, bəziləri doğranır, sonra isə müvafiq reseptlərə uyğun bişirilir. Mürəbbələr tələbata görə 250 qram, 650 qram, 1 kiloqram 200 qram və 2 kiloqram 400 qram çəkilərdə qablaşdırılır.

Müsahibimiz bildirir ki, ötən il müəssisənin məhsullarına tələbatda ilk yeri 2 tonla cəviz mürəbbəsi tutub, sonrakı yerlərdə isə 1,5 ton çəki ilə gül, 800 kiloqram çəkidə isə gilas mürəbbələri olub. Eyni zamanda keçən il müəssisədə meyvə-tərəvəz qurudulması üçün də müəyyən işlər görülüb. Qonşu Türkiyə Respublikasından meyvə-tərəvəzin qurudulmasında istifadə olunan avadanlıqlar alınıb gətirilərək quraşdırılıb. 2013-cü ildə burada 700 kiloqram meyvə qurudulub. Qurudulmuş meyvələr 0,5, 1, 3 və 5 kiloqram çəkidə qablaşdırılaraq satışa çıxarılıb. Sahibkar onu da vurğuladı ki, hələlik, daxili bazarın tələbatına uyğun istehsal olunan məhsulların gələcəkdə xarici bazarlara çıxmasına da böyük ümidlə baxırıq. İnanırıq ki, dadlı Ordubad mürəbbələri çox qısa bir müddətdə xarici bazarda da öz layiqli yerini tutacaq. Bu həm də qədim Ordubad diyarının, muxtar respublikamızın tanıdılması və təbliği baxımından da mühüm rol oynaya bilər. Elə biz də bu arzulara şərik olduğumuzu bildirib oradan ayrılırıq.

Bəhs edəcəyimiz növbəti sahibkarlıq subyekti də bağlar diyarı Ordubadın özünəməxsusluğunu ortaya qoyur. Ordubad limonu... Ordubadda evlərin əksəriyyətində az sayda da olsa, limon ağacına rast gələrsən. Ancaq bizim növbəti həmsöhbətimiz uzun illərdir ki, limon yetişdirməklə məşğuldur. Bu işlə evdə digər ailə üzvləri də məşğul olurlar. Qüdrət Rüstəmov rayonun Əndəmic kəndində yaşayır. 1988-ci ildən davamlı olaraq limonçuluq təsərrüfatı ilə məşğuldur. Bunun üçün həyətyanı sahəsində 600 kvadratmetrlik sahədə istixana kompleksi yaradıb. 2012-ci ildə Sahibkarlığa Kömək Fondundan 12 min manat kredit götürərək kompleksdə təsərrüfat üçün zəruri tədbirlərin həyata keçirilməsini təmin edib. Hazırda istixana kompleksində limon ağacları həm xüsusi hazırlanmış ləklərdə, həm də qablarda yetişdirilir. İstixananın polietilen örtüyü burada yetişdirilən limon ağaclarının inkişafı üçün lazımi Günəş şüalarının düşməsinə imkan yaradır. Burada ilin bütün fəsillərində hazır limon əldə etmək mümkündür. Sahibkar Qüdrət Rüstəmov bildirir ki, digər ağaclar kimi, limon ağacı da qayğını sevir, vaxtlı-vaxtında aqrar tədbirlərin həyata keçirilməsinə ehtiyac duyur. Təsərrüfatın digər sahələri kimi, gərək bu sahənin də mütəxəssisi olasan. Əlbəttə ki, çəkdiyimiz zəhmət də hədər getmir. Ötən il 2500-dən çox limon yetişdirib satmışıq. Rayona gələn qonaqların əksəriyyətinin yolu buradan düşür. Elələri var ki, limon almamış buradan getmirlər. Ordubad limonunun dadını bilənlər bir daha bura üz tuturlar.

Bəli, gündəlik məişətimizdə istifadə etdiyimiz məhsulların istehsalı ilə məşğul olan hər iki müəssisə keyfiyyətli məhsullar istehsal etməklə yanaşı, həm də qədim Ordubad torpağının özünəməxsusluğunu yaşadır. Hansı ki bu özünəməxsusluğa başqa yerdə rast gəlməzsən. Elə bu baxımdan Naxçıvanımızın digər bu kimi məhsullarının xarici bazarlarda tanıdılması çox mühümdür. İnanırıq ki, yaxın gələcəkdə yerli məhsullarımız xarici bazarlarda da özünəməxsus yer tutacaq, qədim Naxçıvanın təbliğinə öz töhfəsini verəcək.

**Səhifəni hazırladı: ✍ Səbuhi HƏSƏNOV**

# Müasirliyə qovuşan rayon mərkəzi: Şahbuz




*“Şərq qapısı” qəzetində fəaliyyətə başlayanda ilk dəfə bu rayondan yazı hazırlamışam. Bu rayona sonralar tez-tez yolum düşüb. Növbəti belə imkan bir neçə gün əvvəl reallaşdı. Yol boyu Şahbuz haqqında eşitdiklərimin, oxuduqlarımın hamısını bir kənara qoyub, ilk olaraq, bu qədim yurd yerinin adının etimologiyası haqqında düşünürdüm. Düzdür, bu barədə bir qədər məlumatım var idi. Bu məlumatları dəqiqləşdirmək üçün AMEA-nın müxbir üzvü Adil Bağırova müraciət etdim.*

Alim bildirdi ki, bununla bağlı müxtəlif versiyalar mövcuddur. Tarixi mənbələrdə “Şahbuz” adına ilk dəfə Eldənizlərin mis sikkə dəfinəsini göstərən xəritədə və Əmir Teymurun tarixçisi Şərəfəddin Əli Yəzdinin “Zəfərnamə” əsərində rast gəlinir. Ancaq faktlar göstərir ki, Şahbuz ərazisi daha qədim yaşayış məskənidir. Bu cəhətdən adın mənası ilə bağlı xalq etimologiyasında, Q.Qeybullayev, M.Təhmasib, T.Hacıyev kimi tədqiqatçıların araşdırmalarında müxtəlif fikirlər səslənir. Həqiqətə daha uyğun olanı isə M.Təhmasibin gəldiyi qənaətdir. “Şahbuz” sözünün “şah” hissəsi “hündür, yüksək” anlamlarında işlənir. Alim “Şahbuz” sözünün ikinci komponentini (bus//buz) qəbilə adı ilə əlaqələndirir. Və bu qəbiləni Midiya qəbilələrindən biri kimi təqdim edir. Buslar türkmənşəli etnos olub, öz adlarını bir qisim toponimlərdə, o cümlədən Şahbuz adında yaşatmışlar. Belə ehtimal olunur ki, sözün birinci hecası olan “şah” “bus//buz” tayfa adı ilə birləşərək “buslara məxsus yüksək yer” mənasını verir.

Adil Bağırova görə, bu adın məna açımı ilə bağlı belə bir ehtimal da məqbul sayıla bilər. Sözün “şah” komponentinin vaxtilə bu ərazilərdə yaşamış “saq” türk qəbilə birləşməsinin adından götürülməsi mümkündür.

Qayıdaq bu qədim yurd yerinin tarixinə. XVI əsrdə burada 27 kəndi, iki məzrəəni (insan yaşamayan yer), Oyuqlucaqaya, Bazaryurd, Dərəbaş gədiyi, Qaçdaş, Nərkeçi və Armudlu yaylaqlarını əhatə edən Dərəşahbuz nahiyəsi yaradılıb, XIX əsrin 40-cı illərinə qədər fəaliyyət göstərib. 1925-ci ildə Naxçıvan inzibati ərazi vahidində Nərimanov rayonu adlandırılıb (30 kəndi əhatə edib), 1930-cu ildən “Şahbuz” adı bərpa olunub. Rayon 1963-cü ildə ləğv edilərək Naxçıvan (indiki Babək) rayonuna birləşdirilib, 1965-ci ildə yenidən təşkil olunub. Şahbuz qəsəbəsinə 2007-ci ildə şəhər statusu verilib. 2013-cü il fevral ayının 22-də Azərbaycan Respublikası Milli Məclisinin Qərarı və 2013-cü il mart ayının 15-də ölkə Prezidentinin imzaladığı Sərəncamla sahəsi 1454 hektar olan Qarababa kəndi bütövlükdə, Ayrınc kəndinin 92,8 hektar sahəsi, Daylaqlı kəndinin 274,8 hektar sahəsi Şahbuz şəhərinə verildikdən sonra hazırda rayon mərkəzi 2826,6 hektar sahəni əhatə edir.



### Quruculuq prosesləri davamlı xarakter alıb və ya yeni obyektlərin sayı artır

Şahbuz şəhərinin ən gözəl ünvanına çevrilən Heydər Əliyev prospekti və “28 May” küçəsi boyu sıralanan rayon İcra Hakimiyyəti, Maliyyə, Təhsil, Polis şöbələri, Baytarlıq və Rabitə idarələri, Dövlət Sosial Müdafiə Fondunun Şahbuz Rayon Şöbəsi, Əhalinin Sosial Müdafiəsi, Gigiyena və Epidemiologiya mərkəzləri, Tarix-Diyarşünaslıq Muzeyi, Avtovağzal, “Araz” kinoteatrı, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Uşaq Kitabxanası, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı, ümumilikdə, 40-a yaxın təşkilat üçün inşa olunan yeni binalar burada quruculuq tədbirlərinin davamlı xarakter aldığının ifadəsidir. Qeyd edək ki, həmin təşkilatların hamısında müasir iş şəraiti yaradılıb. 21 ictimai yaşayış binası təmir edilib. Bu da həmin mənzillərdə yaşayan insanların məişət şəraitinin yaxşılaşdırılmasına səbəb olub. Həmin ərazilərdə gülkarlıqlar və yaşıllıq zolaqları salınıb.

Quruculuq tədbirləri hazırda da davam etdirilir. Belə ki, “28 May” küçəsində uşaq bağçası üçün yeni bina inşa edilir. Tikinti işləri “Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə olunub. İnşaatçıların yaradılan iş şəraitindən səmərəli istifadə etmələrinin nəticəsidir ki, obyektdə tikinti işlərinin böyük əksəriyyəti başa çatdırılıb.

Şəhərdə ictimai yaşayış binalarının əsaslı təmiri və yenidən qurulması da davamlı xarakter alıb. Hazırda bu iş adıçəkilən küçədəki 14 mənzilli yaşayış binasında aparılır. Bu quruculuq tədbirini isə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Belə tədbirlər hesabına bu kiçik rayon mərkəzi bu gün müasir şəhər timsalındadır.

Şahbuz şəhərində həyata keçirilən daha bir layihə isə rayon mərkəzində su və kanalizasiya sistemlərinin, şəhərarası yolların yenidən qurulmasıdır.

Yeri gəlmişkən qeyd edək ki, bu il oktyabrın 27-də rayon mərkəzində 2 yeni obyektin açılışı olub. Onlardan biri Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin yeni binasıdır. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin nailiyyətləri nümunə gücündədir. Məktəbin qazandığı bu uğurlar tədrisin düzgün qurulması, nizam-intizamın və tələbkarlığın yüksək səviyyədə olmasının nəticəsidir. Kollektiv bundan sonra da qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməli, məktəbdə tədrisin səviyyəsi daha da yüksəldilməlidir”.*** Ali Məclis Sədrinin tövsiyələrini əldə rəhbər tutan məktəbin pedaqoji kollektivi ilk gündən öz işini günün tələbləri səviyyəsində davam etdirməyə başlayıb. Qeyd edək ki, yeni məktəb binası 216 şagird yerlikdir. Üçmərtəbəli təhsil ocağında 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Üç minə yaxın dərslik və bədii ədəbiyyat fondu olan kitabxanada internet vasitəsilə elektron kitabxanalara müraciət etmək mümkündür. Kompüter otağında hər biri internetə qoşulmuş 19 kompüter dəsti vardır. Məktəbdə yaradılan fənn laboratoriyaları da müasir tədris-təcrübə avadanlıqları ilə təmin edilib. Fizika laboratoriyasında quraşdırılan elektron lövhə dərslərin və təcrübə məşğələlərinin müasir metodlar səviyyəsində keçilməsinə şərait yaradıb.

Qeyd edək ki, məktəbin ötənilki məzunlarından 7-si ali məktəblərə, 1 şagird 9-cu sinif bazasından orta ixtisas məktəbinə qəbul olunub. Tələbə adını qazanan məzunların 4-ü 500-700 intervalında bal toplayıb.

### Daha bir obyekt həmin gün istifadəyə verilən Şahbuz Şəhər Mərkəzidir

İki mərtəbədən ibarət binada rabitə evi, kitabxana, polis sahə məntəqəsi, Yeni Azərbaycan Partiyası Şahbuz şəhər ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə və klub fəaliyyət göstərir.

Burada yerləşən rabitə evində 512 yerlik 2 nömrəli ATS quraşdırılıb. Mərkəzdə 6 min 558 kitab fonduna malik kitabxana və 55 yerlik iclas zalı vardır. Binada Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Şahbuz Rayon Şöbəsi üçün də iş otaqları ayrılıb.

Quruculuq tədbirləri çərçivəsində şəhərin yol infrastrukturu tamamilə yeniləşdirilib, şəhərdaxili 2 kilometr yola yeni asfalt örtük salınıb. Yol üzərindəki körpü genişləndirilərək təmir olunub, 3 suötürücü tikilib. Şəhərdə 3 min 800 metr fiber-optik kabel, 3 min metr məsafədə elektrik xətti, 180 metr yeraltı kabel çəkilib, müasir işıqlandırma sistemi qurulub. Bundan başqa, 120 metr uzunluğunda müxtəlif diametrli qaz xətlərinin yeri dəyişdirilib, yeni tikililərə 460 metr uzunluğunda qaz xətti çəkilib.

### Şahbuzlular minnətdarlıq edirlər

Rayonun yaşlı sakinlərindən Qaşdar Əliyev buranın həm dünənini görüb, həm də bu gününü:

– Neçə illər əvvəl bura kənd görkəmində idi. Rayon mərkəzi olsa da, ona bu adı verməyə çətinlik çəkirdik. Son 19 ildə muxtar respublikada həyatın bütün sahələrinin inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Bu tədbirlər qədim diyarın bütün bölgələrini əhatə edib. Şahbuza da həmin tədbirlərdən pay düşüb. Bu gün Şahbuz tanınmaz dərəcədə dəyişilib. Şahbuzun dünənini gördüyüm üçün gənclərə demək istəyirəm ki, doğma yurd yerinin bu gününün qədrini bilsinlər, qurulanları, yaradılanları qorusunlar, gələcək nəslə ərmağan etsinlər. Bu, hamımızın borcudur. Bizim üçün tikiblərsə, bizim üçün şərait yaradıblarsa, biz də bunu yaşatmağı bacarmalıyıq. Ancaq bu halda üzərimizə düşən vətəndaşlıq vəzifəsini yerinə yetirmiş olarıq.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Həvva Həsənəliyeva:

– Şahbuz şəhərinin sakinləri bu gün yüksək dövlət qayğısı əhatəsindədirlər. Günü-gündən gözəlləşən şəhərimizlə qürur duymamaq mümkün deyil. Hara baxırsan, tikinti-quruculuq işlərinin bəhrələrini görürsən. Kiməsə bu işlər asan görünə bilər. Ancaq blokada şəraitində yaşayan bir diyarda belə genişhəcmli tədbirləri həyata keçirmək kiçik məsələ deyil. Bu tədbirlərin ən ucqar dağ kəndlərində belə reallaşdırılması məhz insana qayğının nəticəsidir. Təhsil sahəsinə daha çox diqqət yetirilir. Bu səbəbdəndir ki, ilbəil qazanılan uğurlar artır. Ötən dərs ilində Şahbuz rayonunun məktəblərini 211 məzun bitirib. Onlardan 164-ü ali məktəblərə qəbul olmaq üçün sənəd verib, 98-i tələbə adına layiq görülüb. Gələcək fəaliyyətimizdə daha böyük uğurlara nail olmaq əzmilə çalışırıq. Çalışırıq ki, doğma Şahbuzumuza və şahbuzlulara göstərilən qayğıya əməli işimizlə cavab verə bilək.

Təqaüdçü müəllim Həbib Hüseynov:

– Uzunömürlülər diyarı olan Şahbuz bu gün öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu inkişaf hər bir şahbuzlu kimi, məni də ürəkdən sevindirir. Belə şəhərin sakini olmağımla fəxr edirəm. Başqa cür də ola bilməz. Şahbuzlular yurd yerinə bağlı insanlardır. Odur ki, burada görülən hər bir iş – tikilən bina, salınan yaşıllıq və gülzarlıq, çəkilən yol, təmir olunan obyekt bizə böyük fərəh hissi gətirir.

Qeyd edək ki, Şahbuz şəhərində həm də Ahıllar evi fəaliyyət göstərir. Buraya müxtəlif ünvanlardan pənah gətiriblər. Onlardan biri Bakı şəhərindən gəlmiş Violetta Nikolayevna Çernişevadır:

– Şahbuz şəhəri, buradakı Ahıllar evi haqqında eşitmişdim. Düşünürdüm ki, ucqar bir yerdə, yəqin ki, heç bir şəraiti olmayan bir yerdir. Lakin bura gəldikdən sonra yanıldığımı gördüm. Tez-tez şəhərə çıxıram, buradakı dəyişiklikləri görürəm. İnanın ki, özümü şahbuzlu hesab edib mən də bu cah-calala sevinirəm.

*Bu gün Şahbuz şəhəri muxtar respublikanın hərtərəfli qayğı ilə əhatə olunan, bu qayğı hesabına müasir rayon mərkəzinə çevrilən yurd yerlərindən biridir. Burada həyata keçirilən genişmiqyaslı tədbirlərdən saatlarla danışmaq olar. Şahbuz rayonu həm də turizm üçün böyük və əlverişli imkanları olan bir bölgədir. Ona görə də həmişə qonaq-qaralı olur. Qonaq-qaralı yer isə həmişə ruzi-bərəkətli olub. Bu gün Şahbuz şəhəri də beladır. Bizə isə bunu arzu etmək qalır: qonaq-qaran çox, ruzi-bərəkətin bol olsun, **Şahbuz.***

**Muxtar MƏMMƏDOV**

# Culfa Rayon Prokurorluğu hüquqi maarifləndirmə tədbiri keçirib

***Noyabrın 5-də Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Göydərə kəndində təbii qazdan, sudan, elektrik enerjisindən düzgün istifadə qaydalarına, həmçinin “Uşaqlara və valideynlərə kömək göstərməkdən qərəzli boyunqaçırma inzibati və cinayət məsuliyyətinə səbəb olur” mövzusuna həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov “Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasına görə məsuliyyət” mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir. Əli Adıgözəlov qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə də sakinlərə məlumat verib.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin “Mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – “Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması” maddəsi əlavə edilməklə cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət əməli kimi təsbit edilib. Həmçinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 276.2.8-ci maddəsinə əsasən, məişətdə istifadə edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilmədiyi hallarda kreditorun tələbi ilə borcun ödənilməsi məqsədilə kreditorun ərizəsinə əsasən, məhkəmə tərəfindən məhkəmə əmri çıxarılır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 101-ci maddəsində isə su obyektlərindən və sudan istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyət və belə inzibati xətaları törədən fiziki, hüquqi və vəzifəli şəxslər barəsində inzibati cərimələr nəzərdə tutulub.

Sonra Culfa rayon prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas Xalid Ağayev çıxış edərək bildirib ki, valideynlərin hüquq və vəzifələri Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində öz əksini tapıb. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin bu fəsildə göstərilən hüquq və vəzifələri xitam verilir.

Valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar. Onlar uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar. Valideynlər uşaqların ümumi orta təhsil almalarına qədər onların maraqlarını nəzərə almaqla təhsil müəssisəsini və təhsil formasını seçmək hüququna malikdirlər. Dövlət valideynlərin bu hüquq və vəzifələrinə qanunda nəzərdə tutulmuş qaydada yalnız uşağın mənafeyi tələb etdiyi hallarda müdaxilə edə bilər.

Vurğulanıb ki, valideynlər uşaqlarının hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlərin və uşaqların maraqları arasında ziddiyyət yarandığı müəyyən olunarsa, müvafiq icra hakimiyyəti orqanı uşaqların hüquq və mənafeyini müdafiə üçün nümayəndə təyin etməlidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Kərəm HƏSƏNOV**

## Fiziki imkanları məhdud insanlar tərəfindən toxunan isti geyimlər hərbi hissəyə təhvil verilib

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə cari ilin oktyabr ayı ərzində fiziki imkanları məhdud şəxslər tərəfindən toxunan 1809 cüt yun corab “N” hərbi hissəyə təhvil verilib. Noyabrın 5-də 1157 cüt yun corabın hərbi hissəyə təhvil verilməsi ilə əlaqədar növbəti tədbir keçirilib.***



Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev çıxış edərək bildirib ki, bu günə kimi fiziki imkanları məhdud 24 şəxs tərəfindən toxunan 2966 cüt yun corab hərbi hissələrə təhvil verilib. Bu tədbir həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin etməklə onların maddi təminatlarının yaxşılaşmasına da xidmət edir.

“N” hərbi hissənin zabiti, mayor Şöhrət Səfərov komandanlıq adından minnətdarlığını bildirib.

Məlumat üçün qeyd edək ki, hərbi hissələr üçün yun corabların toxunması bu il avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bu istiqamətdə verilmiş tapşırığın icrası ilə əlaqədar olaraq həyata keçirilib.

## Məhdud fiziki imkanlı vətəndaşlara növbəti səyyar xidmət göstərilib

Muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərin tibbi və sosial reabilitasiya işinin kompleks şəkildə təşkili, o cümlədən bu kateqoriyadan olanlara protez-ortopedik xidmətlərin göstərilməsi istiqamətində davamlı olaraq müvafiq tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3-5 noyabr tarixlərində protez-ortopedik məmulatlarına və texniki-bərpa vasitələrinə ehtiyacı olan 66 məhdud fiziki imkanlıya, o cümlədən 22 ahıla və sağlamlıq imkanları məhdud 9 uşağa növbəti səyyar xidmət göstərilib.

Tibbi-texniki heyət məhdud fiziki imkanlı şəxslərin evlərinə gedərək onların ehtiyacları ilə maraqlanıb, 17 nəfərin protez və ortez sifarişləri qəbul edilib, 2 nəfərin protezləri təmir olunub, eyni zamanda 66 nəfər texniki-bərpa vasitələri ilə, o cümlədən 11 nəfər eşitmə apartı, 55 nəfər isə müxtəlif növ əsalarla təmin edilib.

**_Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti_**

## Qaz cihazlarının istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmalıdır

***Havaların soyuması ilə əlaqədar olaraq, muxtar respublika ərazisində əhalinin mavi yanacağa olan tələbatı artmağa başlayır. Ötən illərin təcrübəsi onu göstərir ki, bəzi hallarda vətəndaşlar tərəfindən qaz cihazlarından təhlükəsizlik qaydalarına əməl edilməməsi səbəbindən çox vaxt insan itkisi ilə nəticələnən partlayış, yanğın və zəhərlənmə kimi bədbəxt hadisələr baş verir. Bütün bunlar standartlara uyğun olmayan, istehsal mənşəyi bilinməyən qaz cihazlarından istifadə, qaz xətlərinin özbaşına çəkilməsi, qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri və əlavə qaz cihazlarının quraşdırılması kimi qəbuledilməz hallara yol verilməsi zamanı baş verən bədbəxt hadisələrdir.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bütün bunları nəzərə alaraq, qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərinə ciddi əməl olunmasını vacib hesab edir.

Qaz təsərrüfatının mövcud olduğu sahələrdə yanğın, partlayış və zəhərlənmə kimi arzuolunmaz hallardan mühafizə olunmaq üçün mülkiyyət formasından asılı olmayaraq, hər bir təşkilatın, həmçinin hər bir vətəndaşın bir sıra qaydalara, xüsusən yanğın təhlükəsizliyi qaydalarına əməl etməsi zəruridir. Qaz təsərrüfatı ilə bağlı yanğın təhlükəsizliyi qaydalarına tikinti və quraşdırma işlərindən başlamaq lazımdır. Təyinatından asılı olmayaraq, bina və qurğulara qaz kəməri çəkilərkən kəmər binanın bünövrəsindən binaya polad qılaf daxilində keçməlidir. Qılafın daxilində qaz kəmərinin birləşmə hissələri olmamalı, torpaqdan çıxdığı yerdə isə zədədən mühafizə edilməlidir. Qaz kəməri binanın üstündən çəkilərsə, kəmərin aşağı hissəsindən bina örtüyünə qədər məsafə, ən azı, 50 santimetr olmalı, divar boyu çəkildiyi halda isə pəncərə və qapıların qarşısını kəsməməlidir. Qaz kəməri elə çəkilməlidir ki, o, başqa otaqlara deyil, bilavasitə qaz işlədən qurğunun yerləşdiyi otağa daxil olsun. Bir sıra təhlükəli hallara şərait yaratdığından lift şaxtası, havadəyişmə şaxta və kanalları, eləcə də tüstü boruları ilə qaz kəmərinin çəkilməsi qadağan olunur.

Təhlükəsizliyi təmin etmək üçün yaşayış binalarında digər tələblər də yerinə yetirilməlidir. Birinci növbədə, yaşayış binasının qaz kəməri polad borudan olmalı, suvaq altından deyil, açıq havada çəkilməlidir. Qazın plitəyə verilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır. Qaz plitəsi qurulan mətbəxin hündürlüyü 2,2 metrdən az olmamalı, mətbəxin pəncərəsi açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir.

Bu qaydaların pozulması ilə yanaşı, bir sıra digər səbəblər də yaşayış evlərində yanğın baş verməsinə şərait yaradır. Məişətdə işlədilən qaz cihazlarından törənən yanğınların əsas səbəbi boru kəmərlərində, birləşmə qovşaqlarında kipliyin pozulması və qaz plitələrinin odluqlarından qazın sızmasıdır. Təbii qaz, eləcə də mayeləşdirilmiş balon qazı hava ilə birlikdə partlayış təhlükəli qarışıqlar əmələ gətirməyə qadirdir. Buna görə də mənzildə və digər yerlərdə qaz qoxusu hiss etdikdə kibrit, alışqan yandırmaq, hər hansı bir elektrik qurğu və cihazlarından istifadə etmək, o cümlədən onları cərəyana qoşmaq və ya ayırmaq olmaz. Açıq oddan istifadə etmək, siqaret çəkmək də qaz dolmuş yerlərdə partlayış və yanğına səbəb ola bilər. Qazsızma səbəbləri müxtəlifdir. Əgər sızma qaz cihazındakı kranın açıq qalmasından əmələ gəlmişsə, onu bağlamaq, mənzilin havasını dəyişmək üçün qapı və pəncərələri açmaq, hava axını yaratmaq lazımdır. Əgər qazın sızması qaz kəmərinin və ya qaz cihazının zədələnməsindən əmələ gəlmişsə, onda qazdan istifadə etmək olmaz və təcili qəza xidmətinə (**104** nömrəsinə zəng etməklə) xəbər vermək lazımdır. Qaz plitəsindən istifadədən sonra plitənin bölüşdürücü lövhəsindəki kranı və plitədən kənarda olan qaz kəmərinin üzərindəki kranı bağlamaq lazımdır. Plitə, xüsusən onun odluqları daim təmiz saxlanmalıdır. Plitənin üzərində paltar və sair qurutmaq yanğın törədə bilər. Tüstü bacası havanı yaxşı çəkmədikdə qazdan istifadə etmək məsləhət görülmür. Qaz cihazından istifadə etməyi bacarmayan şəxslərə və uşaqlara onları yandırmağa və istifadə etməyə icazə verilməməlidir. Plitədə və qaz kəmərində özbaşına dəyişiklik etmək yolverilməzdir. Qaz cihaz və qurğularının yerinin dəyişdirilməsi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir.

Zəhərlənməyə səbəb olan amillərdən biri də əhali tərəfindən yaşayış sahələrində kustar qaydada hazırlanmış qeyri-standart qızdırıcı qaz cihazlarından və ya su qızdırıcılarından istifadə olunmasıdır. Belə ki, bu cihazların aidiyyəti orqanların icazəsi olmadan müəyyən sexlərdə istehsal edilməsi, satışa buraxılması, əksər hallarda qüvvədə olan norma və qaydaların tələblərinə zidd olaraq istifadəsi, qadağan olunmuş yerlərdə quraşdırılması qəzaların başvermə ehtimalını daha da artırır. Buna görə də zavodda istehsal edilmiş qaz cihazlarını əldə etmək məsləhət görülür. Qeyri-standart qaz cihazlarından istifadə edilməsinə, ümumiyyətlə, yol verilməməlidir.

Qaz cihazları alan zaman onun uyğunluq sertifikatını və texniki pasportunu satışı həyata keçirən mağaza sahiblərindən tələb etmək vacibdir. Cihaz quraşdırıldıqdan sonra onun istifadə qaydaları ilə tanış olmaq lazımdır. Çünki partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi qəza hadisələrinin əksəriyyəti bu qaydalara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismarı qaydalarını, avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunub-olunmamasını, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli, ona hər bir vətəndaş ciddi əməl etməlidir. Unutmamalıyıq ki, bu qaydalara əməl etməməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsi yaradır, özümüzü, ailə üzvlərimizi, ətrafdakı insanları bədbəxt hadisələrə düçar edirik.

Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin **“112”** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **“101”** xidmətinə məlumat verilməlidir. Unutmayın ki, təhlükəsizliyiniz öz əlinizdədir.

**Mirtaleh SEYİDOV**
**_Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, daxili xidmət kapitanı_**

## Yanğın təhlükəsizliyi ilə bağlı tədbir keçirilib

***Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə yanğın təhlükəsizliyi ilə bağlı müəyyən olunmuş tələblərə əməl edilməsi, yanğın təhlükəsizliyi sahəsində müəssisələrin və vətəndaşların hüquq və vəzifələri, eləcə də fövqəladə hallar zamanı davranış qaydaları ilə bağlı maarifləndirici tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə məktəbin direktoru Ülkər Möhsümova açaraq təhsil müəssisəsində yanğın təhlükəsizliyi ilə bağlı həyata keçirilən təhlükəsizlik tədbirlərindən danışıb.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin rəisi, daxili xidmət kapitanı Mirtaleh Seyidov “Təhsil müəssisələrində yanğın təhlükəsizliyinin təşkili və yanğın təhlükəsizliyi sahəsində vətəndaşların, müəssisələrin hüquq və vəzifələri” mövzusunda məruzə ilə çıxış edib.

Sonra məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin baş zabiti, daxili xidmət baş leytenantı Telman Əhmədovun, nazirliyin Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin əhalinin maarifləndirilməsi və metodik yardımın təşkili üzrə baş məsləhətçisi Əbülfəz Qafarovun, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Dövlət yanğın nəzarəti bölməsinin rəisi, daxili xidmət baş leytenantı Hasil Məmmədovun çıxışları olub.

Tədbirdə dəm qazı və yanğın təhlükəsizliyi ilə bağlı videomaterial nümayiş etdirilib, iştirakçılara “Yaşayış evlərində və mənzillərdə yanğın təhlükəsizliyi qaydaları” adlı yaddaş kitabçaları paylanılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi *aşağıdakı polis orqanlarında vakant olan orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir*

**Ali hüquq təhsilli mütəxəssislər üçün**

*1) Təhqiqatçı vəzifəsinə:*

Şahbuz Rayon Polis Şöbəsi – 1 yer

*2) Polis sahə inspektoru vəzifəsinə:*

Naxçıvan Şəhər Polis İdarəsi – 1 yer, Babək Rayon Polis Şöbəsi – 2 yer, Culfa Rayon Polis Şöbəsi – 2 yer, Ordubad Rayon Polis Şöbəsi – 5 yer, Ordubad Rayon Polis Şöbəsinin Biləv Polis Bölməsi – 2 yer, Şahbuz Rayon Polis Şöbəsi – 3 yer, Şərur Rayon Polis Şöbəsi – 8 yer, Şərur Rayon Polis Şöbəsinin İbadulla Polis Bölməsi – 2 yer.

*3) Müstəntiq vəzifəsinə:*

Şərur Rayon Polis Şöbəsi – 1 yer

*4) Post-patrul xidməti taqımının komandiri vəzifəsinə:* Culfa Rayon Polis Şöbəsi – 1 yer, Şərur Rayon Polis Şöbəsi – 1 yer, Babək Rayon Polis Şöbəsi – 1 yer.

**Pedaqoji təhsilli mütəxəssislər üçün**

*5) Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə inspektor vəzifəsinə:*

Culfa Rayon Polis Şöbəsi – 1 yer, Şərur Rayon Polis Şöbəsi – 1 yer, Babək Rayon Polis Şöbəsi – 1 yer, Şahbuz Rayon Polis Şöbəsi – 1 yer, Ordubad Rayon Polis Şöbəsi – 1 yer

**Müsabiqə test imtahanlarından və müsahibədən ibarətdir.**

Test imtahanları Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təsdiq olunmuş proqramlara və daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə, insan hüquq və azadlıqlarına dair beynəlxalq aktlara aid, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən suallar üzrə keçirilir.

Müsahibə test imtahanını müvəffəqiyyətlə keçmiş namizədlərlə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən aparılır.

Müsabiqədə dövlət təhsil müəssisələrində ali hüquq və ya pedaqoji təhsil (pedaqoji təhsilli mütəxəssislər gələcəkdə polisin digər xidmət sahəsinə dəyişilməmək şərti ilə) almış, Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), yaşı 30-dan yuxarı olmayan və “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə”də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Daxili işlər orqanlarında xidmətə qəbul olmaq istəyən şəxslər bu elanda göstərilmiş ünvanda yerləşən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Müsabiqə Komissiyasına müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*-şəxsiyyət vəsiqəsi;*
*-ali təhsil haqqında diplom;*
*-hərbi bilet (kişilər üçün);*
*-əmək kitabçası (olanlar üçün).*

Təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Namizədlərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binasında (Naxçıvan şəhəri, Nizami küçəsi 32) 2014-cü il noyabr ayının 11-dən dekabr ayının 11-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat $10^{00}$-dan $17^{00}$-dək qəbul olunur.

***Əlaqə telefonları: 545-08-10 (daxili 155, 156)***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi *aşağıdakı polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir*

*Post-patrul xidmətinin polis nəfəri vəzifəsinə:*

Naxçıvan Şəhər Polis İdarəsi – 1 yer, Babək Rayon Polis Şöbəsi – 2 yer, Ordubad Rayon Polis Şöbəsi – 2 yer, Culfa Rayon Polis Şöbəsi – 2 yer.

*Yol-patrul xidməti inspektoru vəzifəsinə:*

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi – 2 yer, Naxçıvan Şəhər Polis İdarəsi – 1 yer, Babək Rayon Polis Şöbəsi – 1 yer.

11 vakant vəzifəni tutmaq məqsədilə keçirilən müsabiqədə Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), yaşı 20-dən az, 30-dan çox olmayan, boyu 180 santimetrdən (qadınlar üçün 170 santimetr) yuxarı olan, düzgün bədən quruluşlu və idman cüssəli, tam və ya orta ixtisas və ya ali təhsilli (yol-patrul xidməti inspektoru vəzifələrinə isə avtomobil nəqliyyatına aid olan orta ixtisas və ya ali təhsilli, sürücülük vəsiqəsi və kompüterlərlə işləmək qabiliyyəti olan) və “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə”də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Şərtlərə uyğun gələn, müsabiqədə iştirak etmək arzusu olan şəxslər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə ərizə ilə müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*-şəxsiyyət vəsiqəsi;*
*-təhsil haqqında sənədin əsli;*
*-hərbi bilet (kişilər üçün);*
*-əmək kitabçası (olanlar üçün).*

Təqdim olumuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılaraq onun sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılacaqdır.

Müsabiqə test imtahanları və müsahibə olmaqla, iki mərhələdə keçiriləcəkdir. Test imtahanını müvəffəqiyyətlə vermiş namizəd müsahibəyə buraxılacaqdır.

Müsabiqədə iştirak etmək üçün sənədlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binasında (Naxçıvan şəhəri, Nizami küçəsi 32) 2014-cü il noyabr ayının 11-dən dekabr ayının 11-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat $10^{00}$-dan $17^{00}$-dək qəbul olunur.

***Əlaqə telefonları: 545-08-10 (daxili 155, 156).***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 934